QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Məktəblərdə qiymət sistemi bilik ölçür, yoxsa stres yaradır?



4

# İnkişaf və quruculuğun nümunəsi: SUMQAYIT



2


SƏS

№ 008 (7418)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

30 yanvar 2026-cı il.
Qiymәti 1 manat


# Qarşılıqlı əlaqələrin vəd etdiyi REAL DİVİDENDLƏR



3

## "Mehriban" müharibə



6

## Hər havaya oynadıq ki...



5

## Taksilərlə bağlı YENİ QƏRAR - 50 manat CƏRİMƏ və...




8

## Tramp üçün İran "loxması"...



5

## Dünyaşöhrətli Azərbaycan şairi



7






***Azərbaycanın iqtisadi baxımdan qüdrətlənməsi, dünya birliyində öz yeri olan dövlətə çevrilməsi beynəlxalq ictimaiyyət tərəfindən təsdiq olunan reallıqdır. Həyata keçirilən dövlət proqramlarının real nəticəsi olaraq bu gün Azərbaycanda iqtisadiyyatın vaxtilə əlçatmaz görünən tərəfləri sürətlə inkişaf edir, dünya standartlarına uyğun müasir iqtisadi infrastruktur formalaşır. Azərbaycan regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir.***

# İnkişaf və quruculuğun nümunəsi: SUMQAYIT

Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir.

Dövlət başçısı İlham Əliyevin 22 il əvvəl - 11 fevral 2004-cü il tarixdə imzaladığı Dövlət proqramının əsas qayəsi regionlarda sahibkarlığın inkişafını sürətləndirmək və oradakı əmək ehtiyatlarından, təbii iqtisadi resurslardan kifayət qədər səmərəli istifadə etməklə iqtisadiyyatın tarazlı və davamlı inkişafına, infrastrukturun müasirləşdirilməsinə, əhalinin məşğulluğunun artırılmasına, yoxsulluğun səviyyəsinin azaldılmasına nail olmaqdan ibarət idi. Bölgələrdə yaşayan vətəndaşların zəruri arzu və istəkləri, eləcə də onları illərdən bəri narahat edən, qayğılandıran sosial problemlərin həlli də proqramda dolğunluğu ilə əksini tapmışdır.

Azərbaycan regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Paytaxtla regionlar arasında inkişaf fərqini aradan qaldırmağa hesablanmış regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları bölgələrdə infrastrukturun yenilənməsi, rayonların simasının əhəmiyyətli dərəcədə müasirləşməsində mühüm rol oynayıb. Bölgələrdə istehsal müəssisələrinin dirçəlişi və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, aqrar sektorun müxtəlif dəstək mexanizmləri və innovativ üsullarla inkişaf etdirilməsi, müasir infrastrukturun, yeni iş yerlərinin yaradılması dövlət proqramlarının reallaşdırılmasında əsas nailiyyətlər sırasında qeyd edilməlidir.

## UĞURLU SƏNAYELƏŞDİRMƏ SİYASƏTİ

Ölkəmizdəki yüksəlişi Sumqayıtın da




timsalında aydın görmək mümkündür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Sumqayıt Sənaye Parkında "Azermirror" MMC-nin güzgü vərəqələrin istehsalı zavodunun açılışını edib. Hazırda ölkəmizdə mövcud sənaye zonalarında 104 müəssisə istehsal fəaliyyətinə başlayıb. İndiyədək sənaye zonalarına 7 milyard manatdan çox investisiya yatırılıb və 11 mindən çox daimi iş yeri yaradılıb. Növbəti mərhələdə mövcud layihələr üzrə 1,74 milyard manata yaxın investisiyanın yatırılması nəzərdə tutulur. Sənaye zonalarında indiyədək ümumilikdə 19,4 milyard manatlıq məhsul istehsal edilib ki, bunun 6,1 milyard manatlıq hissəsi ixrac olunub. Hazırda istehsal olunan məhsullar dünyanın 70 ölkəsinə ixrac edilir.

Respublikanın müxtəlif regionlarında sənaye parklarının və sənaye məhəllələrinin yaradılması, orada sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün əlverişli mühitin formalaşdırılması iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi məqsədilə ölkədə reallaşdırılan uğurlu sənayeləşmə siyasətinin nəticəsidir. Sənaye zonaları biznes subyektlərinin innovativliyinin və istehsal səmərəliliyinin artırılmasında, yüksək texnologiyalara əsaslanan məhsul istehsalının təşviqində, ixrac potensialının genişləndirilməsində, eyni zamanda, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Hazırda ölkədə Sumqayıt, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Hacıqabul, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" daxil olmaqla 8 sənaye parkı fəaliyyət göstərir. Naxçıvan Sənaye Parkının, eləcə də Gəncə şəhəri və Şəmkir rayonu ərazisində yeni Qərb Sənaye Parkının yaradılması istiqamətində işlər görülür. Bütün bunlarla yanaşı, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələri də istehsal və sahibkarlıqəaliyyətinin inkişafına töhfə verir.

Qeyd edək ki, ümumi sahəsi 640 hektar olan Sumqayıt Sənaye Parkında hazırda 40 rezident fəaliyyət göstərir, layihələrin ümumi dəyəri 6,7 milyard manat, faktiki investisiya həcmi isə 5,5 milyard manat təşkil edir. Layihələr çərçivəsində 8800-ə yaxın yeni iş yerinin yaradılması nəzərdə tutulur. Faktiki olaraq 6135 nəfər işlə təmin edilib. Rezidentlərin ümumi satış həcmi 15,4 milyard manata çatıb ki, bunun da 5,7 milyard manatı ixracın payına düşür.

"Azermirror" MMC -yə 2023-cü ildə Sumqayıt Sənaye Parkının rezidenti statusu verilib. "Azermirror" tərəfindən sənaye parkının 1 hektar ərazisində güzgü vərəqələrinin istehsalı zavodu tikilib. Burada 30 nəfər daimi işlə təmin olunub. Zavodda ildə 900 min kvadratmetr güzgü vərəqəsi istehsal ediləcək. Müəssisədə hazırlanan məhsulların daxili bazarın tələbatını ödəməklə yanaşı, ixracı da nəzərdə tutulur. Çin texnologiyası əsasında qurulan layihənin investisiya dəyəri 6,13 milyon manatdır.

### Sumqayıt Sənaye Parkında "Bakı Karton və Qutu Fabriki"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıta səfəri zamanı Sumqayıt Sənaye Parkında "Bakı Karton və Qutu Fabriki" MMC-nin karton və qutu taralarının istehsalı müəssisəsinin açılışında iştirak edib. 2023-cü ildə Sumqayıt Sənaye Parkının rezidenti statusu verilən "Bakı Karton və Qutu Fabriki" MMC tərəfindən Parkın 3 hektara yaxın ərazisində karton və qutu taralarının istehsalı müəssisəsi qurulub. Türkiyə və Çin texnologiyalarından istifadə edilən müəssisədə il ərzində 55 milyon kvadratmetr karton və qutu tarası istehsal olunacaq. Burada birinci mərhələdə karton və qutu istehsalının, ikinci mərhələdə isə karton istehsalı üçün tələb olunan yerli xammalın təkrar emalının həyata keçirilməsi planlaşdırılır. Məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac da ediləcək. Burada 64 daimi iş yeri yaradılıb. Sənaye parkının rezidentlərinə verilən bütün güzəştlərdən yararlanan müəssisə təqribən 1,3 milyon manat dəyərində vergi və gömrük azadolmasından faydalanıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Sumqayıt Sənaye Parkında "Nun" MMC-nin polipropilen və laminatlı kisə istehsalı müəssisəsinin təməlini qoyub. Ötən il Sumqayıt Sənaye Parkının rezidenti statusu verilən bu MMC tərəfindən reallaşdırılacaq layihəyə uyğun olaraq 1 hektar ərazidə istehsal müəssisəsinin tikintisi nəzərdə tutulub. Almaniya texnologiyasından istifadə ediləcək müəssisənin illik istehsal gücü 1680 ton laminatlı kisə, 1440 ton polipropilen kisə olmaqla ümumilikdə 3120 tondan çox təşkil edəcək. Məhsullar əsasən daxili bazarın tələbatını ödəyəcək. Burada 140 daimi iş yeri yaradılacaq. İnvestisiya həcmi 11,2 milyon manat olan müəssisənin qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 3 milyon manat dəyərində güzəştli kredit ayrılması nəzərdə tutulub. Burada quraşdırılacaq avadanlığın idxal zamanı ƏDV və gömrük rüsumlarından azad olunması planlaşdırılır.

Bu gün Sumqayıt özünün yeni inkişaf mərhələsini yaşayır. Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar nəticəsində şəhərin sürətli inkişafı təmin olunub, Sumqayıt sənaye mərkəzi kimi vaxtilə qazandığı şöhrətini yenidən bərpa edib. Uğurla həyata keçirilən inkişaf strategiyasının nəticəsi olaraq Sumqayıt tezliklə nəinki respublikamızın, Avropanın və dünyanın ən gözəl diyarlarından birinə çevriləcək.

***Zümrüd BAYRAMOVA***

**Ötən ilin, 2025-ci ilin dekabr ayından bəri Ermənistana üç neft məhsulunun Azərbaycan tərəfindən göndərilməsi haqlı olaraq, beynəlxalq miqyasda, qlobal müstəvidə belə yüksək qiymətləndirilib. Xüsusən də, beynəlxalq reytinq agentliyi olan Moody's-ə görə, bu göndərişlər iki ölkə arasında birbaşa qarşılıqlı ticarət və iqtisadi əlaqənin başlanğıcını göstərir. Azərbaycandan neft və neft məhsullarının alınması ilə bağlı Ermənistanla danışıqların hələ bundan sonra da öz bəhrəsini verəcəyi, real dividentlər vəd etdiyi zərrə qədər də şübhə doğurmur.**



# Qarşılıqlı əlaqələrin vəd etdiyi REAL DİVİDENDLƏR

TƏHLİL

Beynəlxalq reytinq agentliyi hesabatının müəlliflərinin fikrincə, danışıqların uğurlu başa çatması onilliklər boyu davam edən təcriddən sonra struktur dəyişikliyini qeyd edə və Ermənistanın Rusiya yanacağından asılılığını tamamilə azalda bilər. Xüsusən də Moody's beynəlxalq reytinq agentliyi geosiyasi gərginliyin azalmasının regional əlaqələrin və ticarətin artmasına kömək etdiyini də vurğulayır. Qeyd edək ki, sülh müqaviləsinin şərtləri barədə razılaşmadan bəri Azərbaycan və Ermənistan arasında ikitərəfli münasibətlərdə konstruktiv irəliləyişin qeydə alınması artıq beynəlxaq müstəvidə belə diqqətdən yayınmayıb. İki ölkə liderləri arasında diplomatik əlaqələrin artdığı, o cümlədən 2025-ci ilin avqust ayında ABŞ vasitəçiliyi ilə imzalanmış birgə bəyannamə ərazi iddialarından imtinanı, sərhədlərin delimitasiyasının sürətləndirilməsini və nəqliyyat yollarının bərpasını rəsmiləşdirdiyi qətiyyən təkzib olunmur və oluna da bilməz. Əvvəla ona görə ki, gərginliyin azalması artıq real iqtisadi nəticələr belə verməkdədir. Bunu elə Moody's beynəlxalq reytinq agentliyi də etiraf edir. Etiraf edir ki, ötən ilin oktyabr ayında Azərbaycan öz ərazisindən Ermənistana yük daşınmasına qoyulan məhdudiyyətləri aradan qaldırdı və bu da öz növbəsində iqtisadi əlaqələrin bərpası potensialını nümayiş etdirir.

Ermənistanın enerji ilə bağlı asılılığının aradan qaldırılmasına kim kömək edir? Belə bir sual əslində, bütövlükdə erməni cəmiyyətini də maraqlandırmalıdır. Nəinki maraqlandırmalıdır, bununla bağlı hayların ciddi şəkildə düşünmələri və lazımi nəticələr çıxarması lazımdır. Haylar nəticə çıxarmalıdırlar ki, yeganə təhlükəsiz anlaşma məhz Azərbaycanla olan əlaqələrlə bağlıdır. Əvvəla ona görə ki, məsələn, Rusiyaya məxsus olan Rosatom dəstək təklif edərkən, rəsmi İrəvanın öz sabitliyini riskə ataraq, Qərb və qonşuları ilə layihələri müzakirə etməli olduğu nəzərdən qaçmamalıdır. Nəzərdən qaçmamalıdır ki, Ermənistan məhz enerji ilə bağlı məsələləri necə inkişaf etdirmək, xüsusən də, bu vaxta qədər ənənəvi tərəfdaşı kimi saydığı Rusiya ilə əməkdaşlığı davam etdirmək və ya yeni oyunçular cəlb etməyə çalışmaq kimi həlledici bir seçimlə üzləşdiyi günün reallığıdır. Ən böyük reallıq odur ki, rəsmi irəvanın məhz bu mövzuda qərarı ölkənin enerji müstəqilliyinə birbaşa təsir edən məqamdır və bunu beynəlxalq nəşrlər belə etiraf edirlər. Onu da etiraf edirlər ki, Ermənistanda hansısa bir ölkə ilə müqayisə edilə bilən maliyyə və ya texnoloji resurslar yoxdur və məhz ona görə də enerji resurları ilə bağlı Azərbaycanla əlaqələr, danışıqlar, razılaşmalar haylar üçün olduqca önəmlidir.

Ermənistan-Rusiya hökumətlərarası komissiyasının dekabr ayında keçirilən iclasında Ermənistan Atom Elektrik Stansiyasının ömrünün uzadılması və yeni əməkdaşlıq sahələri müzakirə olunsa da mənzərə qətiyyən reallığı əks etdirmir. Daha dəqiq desək, Rusiya tərəfi təcrübə mübadiləsi aparmaq istəyini təsdiqləsə də, Rosatom böyük enerji bloklarının tikintisindən tutmuş kiçik modul stansiyalara qədər nüvə enerjisinin inkişafı üçün İrəvana bir sıra təkliflər paketi təqdim etməklə işini bitirmiş hesab edib. Elə məhz buna görə də Ermənistan hökuməti hələlik rəsmi cavab verməyib və bu da təsadüfi deyil. Çünki, heç də Rusiya tərəfinə haylar etibar etmirlər və qətiyyən ümid bağlamırlar. Məhz enerji məsələsində ermənilər tamamilə əmin olmaq istəyirlər və bu mənada rəsmi Bakı daha etibarlı hesab olunur. Hətta Ermənistan hakimiyyəti Rusiya ilə əlaqələri gücləndirmək əvəzinə, ABŞ, Çin, Fransa və Cənubi Koreya ilə əməkdaşlıq etməyi də düşünür, lakin bununla belə, ən sərfəli də məhz Azərbaycanın enerji təminatı daha real görünür və konkret olaraq, real dividentlər kimi nəzərdən qaça bilməz. Baxmayaraq ki, bu gün Ermənistan hakimiyyətinə müxalif qüvvələr baş nazir Nikol Paşinyanın Ermənistan və Azərbaycanın enerji sistemlərini birləşdirmək təşəbbüsü ilə bağlı fikirlərini tənqid etmək üçün əldən-ayaqdan gedirlər, bir çox müxalifət yönümlü ekspertlər hətta hesab edirlər ki, guya bu yanaşma ölkənin enerji suverenliyini sarsıtmaq məqsədi daşıyır, amma reallıq budur ki, alternativ variant belə təklif edə bilmirlər. Xüsusən də, əlaqələrin məhz enerji obyektləri üzərində xarici nəzarətdən asılılığa gətirib çıxaracağını bəhanə edənlər təkcə iqtisadiyyata deyil, həm də milli təhlükəsizlik məsələlərinə təsir göstərəcəyini belə iddia edənlər başqa bir yol da göstərə bilmirlər axı. Ona görə ki, real dividentlərə alternativ variant tapa bilmirlər, əks halda, bunu da iddia edə bilərdilər...

Ermənistanın baş naziri Nikol Paşinyanın İrəvan və Bakının enerji sistemlərini inteqrasiya etməyə və elektrik enerjisinin qarşılıqlı idxal və ixracını təmin etməyə hazır olması barədə verdiyi açıqlama Ermənistan-Azərbaycan arasında sülhün tədricən institusionallaşmasının ən bariz əlamətlərindən birinə çevrildiyi artıq günün reallığı olaraq qəbul olunur. Qəbul olunur ki, bu, sadəcə texniki layihə deyil, iki ölkə arasındakı münasibətlərin məntiqini dəyişdirə bilən siyasi və iqtisadi mexanizmdir. Çünki, enerji sistemlərinin inteqrasiyası ənənəvi olaraq, dövlətlərarası əməkdaşlığın ən həssas formalarından biri hesab olunur. Elektrik enerjisi strateji bir infrastrukturdur. Məhz bu baxımdan da qonşu ölkənin ixrac və idxal imkanlarına çıxışına imkan vermək yüksək səviyyədə etimad və ya ən azı, qarşılıqlı fayda deməkdir. Bu isə öz növbəsində real dividentlər vəd edir...

Təkcə Ermənistan üçün deyil, məsələn, Azərbaycan üçün bu məsələ Qarabağ nizamlanmasından sonra yeni regional reallığın möhkəmlənməsini ifadə edir. Xüsusən də, rəsmi Bakı siyasi razılaşmaları praktik həyata keçirməyə, sülh üçün iqtisadi platformalar yaratmağa hazır olduğunu cəsarətlə nümayiş etdirir. Bu, xüsusilə də, ənənəvi olaraq, regional inteqrasiya layihələrini dəstəkləyən Avropa İttifaqı və bir çox beynəlxalq maliyyə qurumlarının nəzərində Azərbaycanın beynəlxalq mövqeyinin gücləndirilməsi deməkdir. Bunun özü də böyük divident deməkdir, özü də real divident. Çünki, beynəlxalq qurumlar, təşkilatlar üçün çox böyük önəm daşıyır.

Onu da unutmaq lazım deyil ki, Ermənistan üçün TRIPP və əlaqəli enerji təşəbbüslərində iştirakın özü təcrid və qarşıdurma məntiqindən ən yaxşı çıxış yoludur və bunu haylar da anlamalıdırlar və bütövlükdə rəsmi İrəvan da yaxşı başa düşür. Paşinyan məhz faktiki olaraq, "qarşıdurma yolu ilə təhlükəsizlik" modelini "qarşılıqlı asılılıq yolu ilə təhlükəsizlik" modeli ilə əvəz etməyi təklif edir. Siyasi cəhətdən bu, rəsmi İrəvana öz sülh gündəliyini daxili müxalifətə konkret sosial-iqtisadi faydalarla, o cümlədən yanacaq və elektrik enerjisi qiymətlərinin aşağı salınması ilə əsaslandırmağa imkan verir. Daha dəqiq desək, bu gün artıq Paşinyanın özü üçün də daxili auditoriyaya hesablanan addımlar baxımından belə olduqca faydalıdır. Ümumiyyətlə, daxili auditoriyaya hesablanan addımlar baxımından da real divident deməkdir...

Diqqətə çatdırmaq yerinə düşərdi ki, məhz iqtisadi cəhətdən də Azərbaycan bir sıra üstünlüklər qazanır və bu üstünlükləri sadalamağa da dəyər. Birincisi, xüsusilə də ən önəmlisi, ölkəmiz istehsal profisiti dövrlərində elektrik enerjisi ixrac potensialını genişləndirir. Bərpa olunan enerjinin, ələlxüsus da, günəş və külək elektrik stansiyalarının inkişafı enerji sisteminin balanslaşdırılması məsələsini getdikcə daha aktual edir. Ermənistan da məhz əlavə bazara və regional enerji mübadiləsinin elementinə çevrilə bilir. Digər tərəfdən də Ermənistanla enerji əlaqəsi Azərbaycanın məhz tranzit potensialını gücləndirir. Unutmaq lazım deyil ki, bu, gələcəkdə Bakı Xəzər regionunun, Türkiyənin və Cənubi Qafqazın enerji sistemləri arasında əlaqə rolunu oynaya və bununla da Azərbaycan məhz regional enerji mərkəzi statusunu daha da gücləndirə bilər. Bir məqamı da yadda saxlamaq və nəzərdən qaçırmaq lazım deyil ki, enerji məsələləri ilə bağlı bu məqam investorlar üçün siyasi riskləri də azaldır. Bu məhz keçmiş rəqiblə infrastruktur əməkdaşlığı baxımından güclü sabitlik siqnalıdır, hansıki, uzunmüddətli enerji investisiyaları üçün xüsusilə vacib sayılan məqamdır və qətiyyən təkzib edilə bilməz. Bütün bunlar ölkəmiz üçün də haqlı olaraq, real divident sayılır...

Ermənistan üçün faydalar qətiyyən təkzib oluna bilməz, çünki, əsasən praktik və sosial cəhətdən bu faydalar tam olaraq, hiss olunandır. Əvvəla, nəzərdən qaçırmaq lazım deyil ki, Ermənistanın enerji sistemi mövsümi dalğalanmalara, hansısa rezonansa və yanacaq bazarında qiymət artımlarına qarşı həssasdır və bu baxımdan, Azərbaycandan elektrik enerjisi idxal etmək imkanı əlavə alternativlər deməkdir. Bu məqam xüsusən, enerji təchizatının dayanıqlığını artırır. Özü də məhz pik dövrlər üçün bunun əhəmiyyətini qətiyyən nəzərdən qaçırmaq olmaz. Hər halda, haylar bunu da yaxşı başa düşürlər. Yəni, real dividentlərini yaxşı başa düşürlər. Erməni baş nazir Nikol Paşinyanın özünün də qeyd etdiyi həmin o dizel yanacağının qiymətlərinin azalması məsələsi belə, dolayısı ilə də olsa, daha sabit enerji mühiti gözləntiləri ilə əlaqəlidir. Bir məqamı da haylar yaxşı başa düşürlər ki, Ermənistan ənənəvi tərəfdaşlarından imtina etmədən xarici iqtisadi əlaqələrini şaxələndirmək imkanı qazanıb. Bu, məhz hayların ölkələri üçün danışıqlar mövqeyini də gücləndirir və bir, yaxud da iki enerji mənbəyindən asılılığını azaldır ki, bunun özü də real divident deməkdir...

Sonda onu diqqətə çatdıraq ki, Ermənistanın və Azərbaycanın enerji sistemlərinin birləşməsi regional səviyyədə bir presedent yaranması üçün önəmli faktdır. Hər halda, bütün bunların ardınca daha genişmiqyaslı layihələr də planlaşdırıla və ya, ən azından, barəsində belə düşünülə bilər. Yəqin ki, nəqliyyat dəhlizlərindən tutmuş, birgə elektrik enerjisi bazarlarına qədər real imkanlar, real dividentlər diqqətdən yayınan deyil. Bu mənada məhz enerji məsələləri özlüyündə təkcə bir məqsəd deyil, dayanıqlı bir sülh, dayanıqlı əlaqələr yaratmaq üçün bir vasitə olaraq, böyük divident deməkdir.

Azərbaycan və Ermənistan arasında enerji sinxronizasiyası məsələsi siyasi məqsədəuyğunluq və iqtisadi hesablamaların üst-üstə düşdüyü ən vacib məqam olaraq da olduqca dəyərlidir. Bakı üçün məsuliyyətli regional lider statusunu möhkəmləndirilməsi nöqteyi nəzərdən çox qiymətli məqamdır. Rəsmi İrəvan üçün də daha çox dividend məhz sülh gündəliyini ölçülə bilən iqtisadi və sosial faydalara çevirmək şansı kimi qlobal müstəvidə belə görülməkdə, dəyərləndirilməkdədir. Hər halda, beynəlxalq aləmdə belə qəbul olunur ki, bütün bu sadalananlar iki ölkə arasındakı münasibətlərdə yeni bir mərhələnin ən praktik və dönməz elementlərindən biridir və ən real divident olaraq, etiraf edilməli, qəbul edilməlidir

*İnam Hacıyev*

# Məktəblərdə qiymət sistemi bilik ölçür, yoxsa stres yaradır?

***Məktəblər təhsil sisteminin mərkəzidir və qiymət sistemi bu mühitin ən vacib elementlərindən biridir. Müəllimlər, valideynlər, siyasətçilər və təhsil ekspertləri uzun müddət qiymət sisteminin məqsədini müzakirə edir: bu sistem həqiqətən şagirdin bilik səviyyəsini ölçürmü, yoxsa bir çox hallarda stres və narahatlığı artıran mexanizmə çevrilib? SİA mövzu ilə bağlı araşdırma edib.***



## Qiymət sisteminin yaranma səbəbi və funksiyası

Məktəbdə qiymət sistemi XIX əsrdə standartlaşdırılmış təhsilin formalaşması ilə birlikdə ciddi şəkildə inkişaf etdi. Əsas funksiyası şagirdin müəyyən bir kurikulum üzrə bilik və bacarıqlarını obyektiv şəkildə qiymətləndirmək idi. Tarixən qiymətlər bir rəy deyil, ölçü kimi istifadə olunurdu: kim daha çox bilik əldə edib və müəyyən standartlara uyğun performans göstərir. Bu "ölçü" həm şagirdə özünü dərk etmə imkanı verir, həm də gələcək üçün seleksiya sistemi kimi görülə bilər (məzuniyyət, universitetə qəbul və s.).

Əslində, qiymətlər nəticəni ölçməli və yönləndirməlidir. Bu baxımdan aktiv və formatif qiymətləndirmə — davamlı rəy və inkişaf yönümlü qiymət - müsbət təsir göstərə bilər.

## Qiymət sisteminin praktik tətbiqi və problemlər

Müasir məktəb sistemlərində qiymət çox vaxt nəticə-mərkəzli, yəni test və yazılı imtahanların performansına əsaslanan göstəricilər kimi istifadə olunur. Bu modeldə şagirdin öyrənmə prosesi deyil, imalat nöqtəsindəki çıxışı (testi) qiymətləndirilir. Bu isə təhsilin mahiyyətini sadələşdirir - əslində prosesin özü qiymətin ölçü vahidi olmaqdan çıxır. Problemlərdən biri ondan ibarətdir ki, qiymət performansı ölçür - məsələn, test nəticəsi, lakin bu nəticə həmişə bilik və anlayışı ölçmür. Bir şagird çoxlu yadda saxlayıb testə yaxşı hazırlaşa bilər, amma dərindən anlayışı zəif qala bilər. Digər tərəfdən, qiymət yalnız "doğru" və "yanlış" cavablarla ölçüldüyü üçün yaradıcı, tənqidi düşünmə və problem həll etmə kimi bacarıqlar kifayət qədər qiymətləndirilməyir.

## Stres: qiymət sisteminin ən real yan təsiri

Qiymət sisteminin şagirddə yaratdığı ən geniş yayılmış reaksiya stresdir. Bu stres təkcə imtahan günü ilə məhdudlaşmır; davamlı qiymət təzyiqi, valideyn və müəllim gözləntiləri, rəqabət mühiti bu psixoloji yükü gündəlik həyata çevirir.

Psixoloji tədqiqatlar göstərir ki, qiymətlər bəzi şagirdlərdə:

– Narahatlıq və qorxu hissini artırır

– Test fobiya və sosial müqayisə xarakterli stress yaradır

– Düşüncə və yaddaş performansını mənfi təsir edir

– Motivasiya əvəzinə qaçış davranışına səbəb olur

Bu stresin miqyası fərdi olaraq dəyişir, lakin ümumi tendensiya onu göstərir ki, qiymət sistemi çox vaxt stres yaratmaqla yanaşı, təhsil prosesini zəhərləyir.

## Qiymət sisteminin streslə bilik ölçməsi arasındakı əlaqə

Bir çox hallarda qiymət sistemi bilik ölçməsindən çox performans nəticəsi ölçür və bu ölçü də streslə əlaqəlidir. Psixoloji açıqlama belədir:

Yüksək qiymət gözləntisi performans narahatlığını artırır. Nəticəyə bağlı motivasiya - "yaxşı qiymət almalıyam" - şagirdin diqqətini öyrənmədən çox nəticəyə yönəldir.

Stres vəziyyətində beyin sorğu və tətbiq tələb edən tapşırıqlarda daha zəif performans göstərir. Nəticədə qiymət sistemi bəzən bilik yox, stressin performansa təsirini ölçür kimi çıxış edir.

## Ölçmənin elmi əsasları və məhdudiyyətləri

Qiymət sisteminin ölçmə aləti kimi elmi əsasları var. Standartlaşdırılmış testlər müəyyən bacarıqları obyektiv qiymətlən-



dirmək üçün nəzərdə tutulub. Lakin burada iki böyük məhdudiyyət yaranır:

Testə uyğunlaşma - test formatına uyğun tapşırıqlarda yaxşı cavab verən şagirdin faktiki dərsi anladığı nəticəsi səhv ola bilər. Qısa səciyyəli ölçü - bilik uzunmüddətli yaddaşdan çıxarış, tətbiq və yaradıcılıq kimi aspektləri əhatə etmir.

Bu məhdudiyyətlər onu göstərir ki, qiymətlər bilik ölçməyin yalnız bir hissəsini ölçür və bu hissə də stresin təsiri ilə daha mürəkkəbləşir.

## Alternativ yanaşmalar: qiymət əvəzinə rəy və inkişaf

Bir sıra təhsil sistemləri qiymət sistemini daha balanslı hala gətirmək üçün:

Formatif qiymətləndirmə - davamlı rəy və səhv/düzəlişlə öyrənməyə kömək

Portfel əsaslı qiymətləndirmə - layihə, təqdimat, refleksiya əsasında qiymət

Öz-qiymətləndirmə və həmyaşıd qiymətləndirmə - öyrənmə prosesinə məsuliyyət daxil etmək

Bu modellər biliki daha çox proses kimi görür, nəticə ilə stress arasında balans yaratmağı hədəfləyir.

## Məktəb dəyərlərindən gələcək uğurlara keçid

Qiymət sistemi ədalətli, obyekti və dəqiq ola bilər; lakin bu yalnız qısa müddətli performansı ölçür. Bir tələbə yaxşı qiymət aldıqda dərsi anlamış görünə bilər, lakin həyati bacarıqlar və davamlı öyrənmə bacarıqları qiymət sistemində kifayət qədər əks olunmur. Bu isə gəncin daha geniş bilik



ölçüsü üçün streslə mübarizə aparmasına səbəb olur.

## Qiymət və şəxsiyyət formalaşması: məktəb psixologiyasının görünməyən tərəfi

Qiymət sistemi təkcə akademik nəticəni deyil, şagirdin özünüdərkini və şəxsiyyət inkişafını da formalaşdırır. Uşaqlıq və yeniyetməlik dövrü insanın "mən kiməm?" sualına cavab axtardığı mərhələdir. Bu mərhələdə davamlı olaraq rəqəmlərlə və hərflərlə qiymətləndirilən şagird öz dəyərini



tədricən qiymətlə eyniləşdirməyə başlayır. "Mən 5-lik şagirdəm" və ya "mən zəif oxuyanam" kimi ifadələr zamanla daxili identitetə çevrilir.

Psixoloji baxımdan bu, təhlükəli mexanizmdir. Çünki qiymət dəyişkəndir, amma formalaşan özünə dəyər hissi uzunmüddətli olur. Nəticədə bəzi şagirdlər uğursuzluq qorxusu səbəbindən risk etməkdən, sual verməkdən və yaradıcı düşünməkdən çəkinir. Digərləri isə yüksək qiymət almağa alışdığı üçün kiçik uğursuzluğu belə şəxsi məğlubiyyət kimi qəbul edir.

## Valideyn gözləntiləri və qiymət təzyiqinin güclənməsi

Qiymət sisteminin stress yaratmasında valideyn amili mühüm rol oynayır. Bir çox ailələr üçün qiymət uşağın gələcəyinin əsas göstəricisi kimi təqdim olunur. "Yaxşı oxu ki, yaxşı insan olasan" kimi yanaşmalar zamanla "yaxşı insan olmaq = yüksək qiymət almaq" düşüncəsini formalaşdırır.

Bu vəziyyət məktəb–ev münasibətini təhsil mühitindən daha çox nəzarət və hesabat mexanizminə çevirir. Şagird dərsi öyrənmək üçün yox, valideyn reaksiyasından qaçmaq üçün oxumağa başlayır. Bu isə daxili motivasiyanı zəiflədir və öyrənmə prosesini emosional yükə çevirir.

## Müəllim faktorunun qiymət sistemindəki rolu

Qiymət sisteminin necə işləməsi böyük ölçüdə müəllimin yanaşmasından asılıdır. Eyni qiymət sistemi daxilində belə, bir müəllim qiyməti rəy və inkişaf aləti kimi istifadə edə bildiyi halda, digəri onu cəza və nəzarət vasitəsinə çevirə bilir. Bu fərq şagirdin məktəbə münasibətində həlledici rol oynayır.

Araşdırmalar göstərir ki, şagird müəllimi tərəfindən ədalətli və şəffaf qiymətləndirildiyini hiss etdikdə stress səviyyəsi azalır və öyrənməyə maraq artır. Əksinə, subyektiv və izahsız qiymətlər şagirdin həm müəllimə, həm də təhsil sisteminə etimadını sarsıdır.

## Rəqabət mühiti: inkişafmı, yoxsa psixoloji gərginlik?

Qiymət sistemi məktəblərdə təbii olaraq rəqabət mühiti yaradır. Müəyyən səviyyədə rəqabət motivasiyaedici ola bilər, lakin bu mühit həddindən artıq gücləndikdə əməkdaşlıq yerini müqayisəyə verir. Şagirdlər artıq "nə öyrəndim?" sualını deyil, "kimdən geri qaldım?" sualını düşünməyə başlayır.

Bu isə sosial münasibətlərə də təsir göstərir. Rəqabətə əsaslanan mühitdə empatiya azalır, uğur başqasının məğlubiyyəti üzərindən dəyərləndirilir. Uzunmüddətli perspektivdə bu yanaşma cəmiyyət üçün də risklidir, çünki əməkdaşlıq bacarığı zəifləyir.

## Rəqəmsal dövrdə qiymət sisteminin yeni çağırışları

Rəqəmsal təhsil platformaları və elektron jurnallar qiymətə çıxışı daha asan edib, lakin bu, stres faktorunu azaldıb demək çətindir. Əksinə, qiymətin hər an görünən olması şagird və valideyn üçün davamlı psixoloji nəzarət hissi yaradır. Bir qiymətin dərhal paylaşılması, müqayisə imkanlarının artması təzyiqi daha da gücləndirir. Eyni zamanda, rəqəmsal mühitdə ölçmənin avtomatlaşdırılması insan faktorunu azaltsa da, şagirdin emosional vəziyyətini nəzərə almayan mexaniki qiymətləndirmə riskini artırır.

## Gələcək üçün əsas sual

Müasir təhsil sistemi qarşısında duran əsas sual artıq təkcə "necə qiymətləndirək?" deyil, "nəyi qiymətləndirək?" sualıdır. Bilik, bacarıq, düşünmə tərzi, əməkdaşlıq və emosional intellekt kimi sahələr klassik qiymət sistemi ilə tam ölçülə bilmir. Bu isə yeni qiymətləndirmə modellərinə ehtiyacı qaçılmaz edir.

## Ümumi yekun

Qiymət sistemi nə tamamilə zərərli, nə də tamamilə faydalıdır. O, necə və hansı məqsədlə istifadə olunmasından asılı olaraq ya bilik ölçən alətə, ya da stress yaradan mexanizmə çevrilir. Əgər qiymət öyrənməni istiqamətləndirirsə, inkişafı göstərirsə və şəxsiyyəti zədələmir¬sə, faydalıdır. Əks halda, o, bilikdən çox qorxu və narahatlıq istehsal edir.

***Günel Fərzəliyeva***

ARAŞDIRMA

# Telefonda parol, mesajda şifrə: xəyanət edirmi?

*"Archives of Sexual Behavior" jurnalında dərc olunmuş bir araşdırmaya görə, kişilərin 23,2 faizi və qadınların 19,2 faizi hazırkı münasibətlərində xəyanət ediblər. Bəzi insanlar partnyorlarının sədaqətinə şübhə edərək onu təqib etməsi üçün özəl detektivə müraciət edirlər.*



Kolumbiyanın məşhur özəl detektiv agentliyi olan "Asesores-IP SAS Colombia"nın baş direktoru Xorxe İzkierdo Rusiyanın ən böyük və ən çox oxunan onlayn xəbər resurslarından biri "lenta.ru"ya xəyanətkarı müəyyən etməyə kömək edə biləcək əlamətlər barədə danışıb. Qeyd edək ki, sözügedən agentlik həmçinin itkin düşmüş şəxslərin araşdırılması, hüquqi məsələlər, korporativ araşdırmalar və təlimlər üzrə ixtisaslaşıb. "Lenta.ru"nun məlum müsahibəsini təqdim edirik.

**-Partnyorun xəyanəti ilə bağlı araşdırma aparmaq üçün agentliyinizə ən çox kim müraciət edir? Bu tip insanın tipik profili varmı?**

-Xəyanət araşdırmaları bütün sorğuların 55-60 faizini təşkil etsə də, biznes və hüquqi araşdırmalardan fərqli olaraq, qəti müştəri profili yaratmaq mümkün deyil. Bu müştərilər gəncdən yaşlıya, yüksək iqtisadi statusdan aşağı gəlirli insanlara qədər dəyişə bilər. Xəyanət sosial statusundan və ya təhsil səviyyəsindən asılı olmayaraq hər kəsə təsir edə bilər. Lakin son 10 ildə daha çox kişilər nikahdan sonrakı xəyanət ilə bağlı araşdırmalar aparmağa çalışırlar.

**-Sizcə, hansı araşdırma ən qeyri-adi idi?**

-Bir müddət əvvəl belə bir hal baş vermişdi. Bir qadın partnyorunun ondan başa da sevgilisi olduğundan şübhələnərək bizimlə əlaqə saxladı. Araşdırmaya başlayanda təkcə qadın deyil, həm də özümüz təəccübləndik. Əslində, kişi ikili həyat sürürdü, amma partnyoru olduğuna görə yox. Onun digər həyatı gecə klubları ilə bağlı idi və o, homoseksual idi. Başqa sözlə, o, adi həyatını yalnız ictimai normalara uyğunlaşmaq üçün yaşayırdı.

**-İnsanların partnyorunun xəyanət etdiyindən şübhələndiyini göstərən əlamətlər hansılardır?**

-Partnyorun sədaqətinə şübhə yarada biləcək ən əhəmiyyətli əlamətlər gündəlik iş rejimindəki dəyişikliklərdir, daha çox makiyaj, ətir, idman salonuna baş çəkmək, geyim tərzindəki dəyişikliklər və s. Adətən işdən sonrakı axşamlar və ya həftəsonları əlavə iş görüşlərinin meydana çıxması, gözlənilməz iş səfərləri, korporativ təlimlər və ya sosial tədbirlər, smartfona parol qoymaq, zənglərə sakit səslə cavab vermək və ya pıçıldamaq, uyğun olmayan vaxtlarda "dost"dan və ya "həmkar"dan çoxlu sayda şifrələnmiş mesaj almaq, gülünc bəhanələrlə ailə tədbirlərində iştirak etmək istəməmək, mobil telefonu təyyarə rejiminə keçirmək və ya stola qoyanda üzü aşağı çevirmək kimi əlamətlər də tərəf müqabilinizin sizə xəyanət etdiyini göstərən amillərdir.

**-İstintaq necə davam edir?**

Biz adətən işə müştəri ilə şəxsən və ya virtual görüşlə başlayırıq. Görüş zamanı müştəri işin mahiyyətini izah edir. Gözlənilən nəticələri (həm müsbət, həm də mənfi), eləcə də potensial müddətləri aydın şəkildə göstərən müxtəlif araşdırma yanaşmaları təklif edirik. İstintaq üç gündən bir aya qədər davam edə bilər. Razılıq əldə edildikdən sonra istintaq prosesi başlayır. Məsələn, yalnız müşahidə və monitorinq tələb olunarsa, müştəri hər iki-üç saatdan bir bizdən hesabat alacaq. Hər hesabata fotoşəkillər və video görüntülər daxildir. Biz bunu müştərini istintaqın gedişatı barədə məlumatlandırmaq üçün edirik. Bəzi hallarda, xəyanət sübutları və istintaqın özü məhkəmə proseslərində təsdiqlənməli və sənədləşdirilməlidir. Mütəxəssislərimiz də bunu həll edə bilərlər.

**-İstintaq qarşı tərəfə nə qədər vəsaitə başa gəlir?**

-Ölkəmizdə orta qiymət iş saatlarının sayından asılı olaraq gündə 200-350 dollardır. Bu, səkkiz saatdan 12 saata qədər dəyişə bilər. Biz adətən müştərilərə əvvəlcədən sabit qiymət təklif etməyə çalışırıq ki, onlar istintaqa nə qədər investisiya qoymaq lazım olduğunu əvvəldən bilsinlər.

**-Detektivlər istintaq zamanı təhlükəli vəziyyətlərlə qarşılaşırlarmı?**

-Xəyanət istintaqları zamanı heç bir təhlükəli vəziyyətlə qarşılaşmamışıq. Lakin oğurluq və fırıldaqçılıqla bağlı apardığımız dedektiv araşdırmaları zamanı mümkündür. Şirkətlər daxilində cinayətkar dəstələri dağıtmaq məcburiyyətində qalmışıq. Cinayəti aşkar edib sübut etdikdən sonra təhqir və təhdidlərlə qarşılaşmışıq. Lakin bu, cinayətkarların başa düşülən reaksiyasıdır.

- Tutaq ki, xəyanət etdiyindən şübhələndiyi həyat yoldaşını araşdıran müştəriniz şübhələrində haqlı çıxır, amma mümkündür ki, bəzən də haqlı çıxmaya bilir. Müştərilər bu hallarda necə reaksiya verirlər? Xəyanət etməyinə şübhələndikləri sevdiyi insana qarşı özlərini günahkar hiss etdilərmi?

-Bəli, xəyanətin sübut edilə bilmədiyi hallar olub. Bu baş verdikdə, müştərilərimiz günahkar hiss etmək əvəzinə, münasibətlərini yenidən qiymətləndirirlər və partnyorlarının davranışındakı dəyişikliyin xəyanətdən deyil, digər amillər səbəbindən artıq pisləşmiş münasibətin məhz özündən qaynaqlandığını anlayırlar.

**-Sizə müraciət edənlərin bu hərəkətinin bir-birinə olan etibarsızlığın göstəricisi olduğu ilə razısınızmı? Sizcə, xəyanət olmasa belə, belə bir münasibət uzun müddət davam edə bilərmi?**

-Münasibətdə etibarsızlıq keçmiş münasibətlər, iş, ailə və ya hüquqi status haqqında məlumatları gizlətmək kimi sadə vəziyyətlərdən də yarana bilər. Buna görə də etibarsızlığın xüsusi olaraq bizimlə əlaqə saxlamağımızdan qaynaqlandığını düşünmək səhv olardı. Əgər hərtərəfli araşdırmadan sonra belə inamsızlıq davam edərsə, düşünmürəm ki, belə bir münasibət uzun sürəcək, çünki problem insanın özündədir. Məsələn, keçmişdə çox gərgin olan və insanlara qarşı ümumi inamsızlığa səbəb olan təcrübələr səbəbindən onların etibar problemləri ola bilər. Həmçinin, kiminsə indi qısqanclığa meylli olması da mümkündür.

**-Son illərdə fırıldaqçılıq hallarının artdığını düşünürsünüzmü? Xidmətlərinizin populyarlığı artıbmı?**

-Bəli, fırıldaqçılıq son illərdə mütləq artıb. Aydındır ki, cəmiyyət dəyər itkisi yaşayır və sosial media dünyası buna töhfə verib, kişiləri və qadınları daha da çox əxlaqsızlığa sürükləyib. Nəticə etibarilə, xidmətlərimizə tələbat da artıb.

**-Partnyorunun xəyanət etdiyinə dair şübhələrdən əziyyət çəkən birinə hansı məsləhəti verərdiniz?**

-Bütün şübhələri aradan qaldırmaq vacibdir, çünki əks halda qeyri-müəyyənlik və sonradan daha təhlükəli olur, çünki bu, tədricən partnyorunun davranış dəyişikliklərinin əsl səbəbi ilə bağlı narahatlıq və şübhə ilə yaşayan insanın zehni sağlamlığını məhv edir.

***Lalə Mehrali***

# Tramp üçün İran "loxması"...

"Bir müddət öncə ABŞ-ın İran əleyhinə kəskinləşən siyasi və informasiya hücumları səngimiş görünsə də, hazırda vəziyyət bunun tam əksini göstərir. Xüsusilə İsrailin bu prosesə fəal şəkildə qoşulması proseslərin davamlı olacağını, prezident Donald Trampın bu məqsədindən vaz keçmədiyini ortaya çıxarır. Bir ara Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın və digər ərəb dövlətlərinin Ağ Evi bu prosesdən çəkindirdiyi deyilsə də, görünür Birləşmiş Ştatlar hökuməti Xomenei rejimini aradan qaldırmaqda israrlıdır. Əlbəttə, özünün regiondakı yeni və mühüm planlarını reallaşdırmaq üçün Vaşinqton "mollalarla" vidalaşmağa hazırlıqlı görünür".

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, hazırda ABŞ Administrasiyası Yaxın Şərq və Cənubi Qafqaz üçün mühüm iqtisadi və infrastruktur planları reallaşdırmaq üzrədir. "Xüsusilə bölgədə TRIPP layihəsinin birbaşa Vaşinqtonun təşəbbüsü ilə reallaşdırılmasına hazırlıq görüldüyü vaxtda, bunun tam əksinə olaraq Rusiyanın bölgədəki proseslərdə oyundankənar vəziyyətdə qalması həm də İranın hazırkı rejimi üçün də son dərəcə arzuolunmaz faktdır. Getdikcə bölgəyə yerləşən və əsas infrastruktur layihələrin müəllifi olan ABŞ, yeni siyasəti üçün yeni İran formalaşdırmaq istəyir. Əgər D.Tramp İrandakı rejim dəyişikliyinə nail olarsa, bu, bütün bölgədə yeni siyasi və iqtisadi xəritənin ortaya çıxması deməkdir. İran "loxması" D.Trampın siyasi hədəfləri sırasında ən aktualıdır. Əlbəttə, nəticəni zaman göstərəcək".



***Afət Tahirqızı***



# Hər havaya oynadıq ki...

**Mətanət Məmmədova**

Deyirəm ki, bəzi insanlar üçün heç nəyin təfavütü yoxdur. Bu yaxınlarda iştirak etdiyim toy mərasimində qarşılaşdığım mənzərə ilə bu qənaətimi bir daha təsdiqlədim. Sözsüz məni qınayanlar olacaq ki, geridə qalmışam. Qoy qınasınlar. Bu mövzuda heç "müasirləşmək" fikrində də deyiləm. Ona görə ki... Mən danışım, haqlı, haqsızı siz müəyyən edin. Müasir toylarımızda hamıya yaxşı məlumdur ki, diskoteka saatı və ya saatları olur. Fikir verməmisəm ki, belə şənliklərdə toy əhlinin ən səbrsizliklə, anbaan gözlədiyi vaxt məhz diskotekadır. Diskoteka vaxtı çatdımı, bayaqdan bəri su səpilmiş dəyirman birdən elə işə başlayır ki, deyirsən bəs göydən yerə dəyirmandaşı düşür. Zalda bir canlanma yaranır ki, elə bil əsl toy indi başlayır.

Adətən gənclər düşürlər ortaya. Ərəb musiqisi türk, gürcü musiqisini, rus musiqisi ingilis, nə bilim ta hansı xalqların musiqilərini əvəz etdikcə, ortalıqdakıların çığırtıları, bitməyən enerjisi yerdə oturanların sönməsinə səbəb olur. Məni bu yazını yazmağa vadar edən həmin toyda isə mənzərə tamamilə başqa idi. İnanın, ortalıqda çox az sayda gənc var idi. Diskoteka saatının budəfəki qonaqları yaşı 40-50-dən yuxarı olanlar idi. Rəqs meydanındakı mənzərəni təsəvvür edin: əyilən, qalxan, qeyri-adi bədən hərəkətləri edən yaşlı adamlar... Şeytan suyunun təsiri ilə yaşına uyğun olmayan tərzdə hoppanıb-düşən kişilər... rəqs etdiyi musiqi ilə bədəninin kilosu bir-birinə zidd olan qadınlar... Gözlülər olsun, görməsin. Var gücləri ilə yerə döydükləri ayaqları musiqinin ahəngi ilə qarışıb yerdə əyləşənlərin beynində çatlayırdı.

Bu dəfə gənclər meydanı verdikləri böyüklərə kənarda dayanıb sadəcə əl çalır və gülümsəyirdilər, arada uğunanlar da olurdu, sözsüz ki... Əyləşənlərlə ortalıqdakılar arasındakı təfavüt o qədər bariz şəkildə idi ki... Mənə görə "Utanmasan oynamağa nə var " atalar kəlamının yaranma anı idi bu meydan. Düşünürəm ki, biz çox təfavütlərə varmaya-varmaya bu günlərə gəlib çıxmışıq. Məsələn, toylarımızı kəndli-şəhərli birdəfəlik şadlıq saraylarına daşımışıq. Həyat toylarını lap çoxdan çevirmişik xatirələrə. Yaxşı, şəhərlərdə bu, deyirlər, başqa cür mümkün deyil. Bəs kəndlərimizdə? Axı kəndlərimizdə geniş həyəti olanlar da kilometrlərlə yol və vəsait xərcləyib rayon mərkəzlərində, şəhərlərdə toy etmək üçün restoran, şadlıq evlərinə üz tuturlar. Rahat olmaq, heç bir əziyyət çəkməmək üçün kredit götürüb illərlə nə əziyyətlə ödəməli olsaq da, restoranlarda toy edirik. Nədir, nədir ki, bir az artıq işləyəcəyik.

Təfavütünə varmadığımız bu məsələ görün nələrə səbəb oldu. Axı restoranlarda hər stulun qiyməti var. Ona görə başladıq evdən bir, uzağı iki nəfəri toylarımıza dəvət etməyə. Nə səbəbə? Çox pul xərcləməmək üçün. Nəticə etibarilə bu, ildən-ilə elə bir vəziyyətə gəlib çatdı ki, toylarımızdan uşaqlar biryolluq yığışıldı. Yeniyetmə, gənclərə məhdudiyyət qoyuldu. Belə oldu ki, əmiqızı, dayıoğlu, xalaqızı, bibioğlu bir-birilərinin toyunda çox az şəkildə iştirak edə bildilər. Bizim üçün təfavüt olmadı ki, toy kimi milli-mənəvi dəyərimizə vurduğumuz zərbə ilə nələri itiririk. Onsuz da toy kimi qədim mərasimin elçiliyindən tutmuş xınayaxdısına, parçabiçiminə kimi dəyişmişik, "müasirləşdirmişik", hər kəs öz bildiyini yamaq edib ona.

Sonra nəyin təfavütünə varmadıq? Yuxarıda söylədiyim diskotekanın. Toylarımızın yaraşığı yallıların, kollektiv rəqslərin yerini yad musiqilərə verəndə bizim üçün təfavüt olmadı ki, ilahi, biz nə edirik. Gənclərimizi oturdub başa salmadıq ki, ay bala, hər çalınan havanı oynamaq olmaz. Bizim mentalitetimizə uyğun deyil bunlar. Yallılara köhnəlik əlaməti kimi baxdıq, kollektiv rəqsləri vaxtı ötmüş hesab etdik. Meydanı verdik xarici musiqilərə, gəncləri də aludə etdik o rəqslərə. Sonra da təfavüt etmədən özümüz düşdük ortalığa. Əl-ələ yapışıb yallı getməli yaşda olduğumuz halda əl-qol ata-ata yaşımıza layiq olmayan rəqsləri sərgilədik. İndi çox təsadüfi toylarda yallı görmək olur. Adama çox xoş və doğma, eyni zamanda bir o qədər də qəribə gəlir bu rəqs- övladlarımızın əksəriyyətinin xəbəri olmayan, mənasını belə bilmədikləri rəqs. Hansısa bir intellektual yarışda iştirak edən 10 nəfər gəncdən biri "yallı nədir",-sualına inanırsınız ki, doğru cavab verə, ya verməyə. Toy mərasimində gördüklərimdən və toyla bağlı xatırlamalarımdan sonra çox təəssüf hiss ilə dərin bir köks ötürərək bir suala cavab axtarıram: görəsən misal üçün Ərəbistanda, Rusiyada, Gürcüstanda, İngiltərədə və rəqslərinə doymadığımız digər ölkələrdə toy mərasimlərində Azərbaycan musiqisi ilə rəqs edən bircə nəfər varmı?..




# ABŞ - Avropa qarşıdurması dərinləşir

## *Vəziyyətin gərginləşməsindən Rusiya, Hindistan və Çin yararlanmağa çalışır*

***Dünyanın müxtəlif bölgələrində baş verən müharibələrə, münaqişələrə yenilərinin əvəz olunacağı proqnozlaşdırılır. Xüsusilə də, ABŞ ilə fars –molla rejimi arasında müharibə, eləcə də Qrenlandiyanın ilhaq edilməsi üçün ABŞ-ın planlaşdırdığı hərbi güc vasitəsi daha real görünür.***

Avropa ölkələri ABŞ-ın fars-molla rejimini sıradan çıxarmaq üçün əməliyyatlara hazırlaşmasına müsbət rəy versələr də Qrenlandiyanın zəbt olunmasını qəbul edə bilmirlər. Açıq şəkildə ABŞ-a qarşı tənqidi fikirlər səslən-dirirlər. Hətta daima bir yerdə olan, birgə fəaliyyətlərini quran tərəflər Qəzzanın yenidən qurulması ilə bağlı yaradılan "Sülh şura"sı məsələsində fərqli mövqe sərgiləyiblər. İtaliyanın baş naziri Corca Meloni, Polşa prezidenti Karol Navrotski, İtaliyanın baş naziri Corca Meloni, Böyük Britaniyanın baş naziri Kir Starmer və digərləri Trampın sədrliyi ilə yaradılan "Sülh şura"sına qoşulmaqdan imtina ediblər. "Financial Times" nəşrinin yazdığına görə İspaniya. Almaniya, ümumilikdə Avropa İttifaqı (Aİ) ölkələrinin əksəriyyəti "Sülh Şurası"na qoşulmaqdan imtina edib. Fransa prezidenti Emmanuel Makronun şuranın nizamnaməsinin Qəzzanın müzakirəsi çərçivəsindən kənara çıxdığını və BMT-nin nüfuzunu sarsıda biləcəyini əsas gətirərək təklifi rədd edib. Polşanın baş naziri Donald Tusk "X" sosial şəbəkə hesabında paylaşımda qeyd edib ki, "Bizimlə heç kimin oynamasına icazə verməyəcəyik".

### ABŞ Qrenlandiyaya qarşı iddiasında geri çəkilmək fikrində deyil

Söz yox ki, ixtilafın yaranmasının kökündə ABŞ-ın Avropa maraqlarına zidd olaraq siyasət aparmasıdır. Lakin hər cür çağırışlara və fəaliyyətə baxmayaraq ABŞ Qrenlandiyaya qarşı iddiasında geri çəkilmək fikrində deyil. ABŞ Prezidenti Donald Trampın Qrenlandiya üzərində Amerika nəzarətinin qurulması zərurəti ilə bağlı bəyanatları Danimarkada ciddi təşviş yaradıb. Danimarkanın Baş naziri Mette Frederiksen Qrenlandiyanın ünvanına təhdidlərin ciddi qəbul edildiyini və nə Kopenhagenin, nə də Nuukun mövcud sərhədləri pozan təzyiqi qəbul edəcəyini vurğulayıb. O, həmçinin NATO üzv ölkəsinə mümkün ABŞ hərbi hücumunun bütün Şimali Atlantika Alyansına ağır zərbə ola biləcəyi barədə xəbərdarlıq edib. Tədqiqatçı Maqnus Kristianson hesab edir ki, Amerikanın Qrenlandiya üzərində nəzarəti alyansın təməlini sarsıda bilərdi. Onun sözlərinə görə, Qrenlandiya məsələsi uzun müddətdir NATO daxilində susdurulur və rəsmi forumlarda qaldırılmayıb. Lakin indi vəziyyət kəskinləşib, çünki ABŞ özü təzyiq təşəbbüskarıdır.

Ağ Evin açıqlamasında isə bildirilir ki, D. Tramp və onun komandası bu mühüm xarici siyasət məqsədinə nail olmaq üçün müxtəlif yolları müzakirə edir və əlbəttə ki, ABŞ silahlı qüvvələrindən istifadə baş komandanın ixtiyarında olan variantlardan biri kimi hər zaman nəzərdən keçirilir. Diqqətçəkən məqam ondan ibarətdir ki, ABŞ vətəndaşlarının əksəriyyəti Qrenlandiyanın ilhaq edilməsinə qarşıdır. Bunu aparılan rəy sorğuları da təsdiqləyir.

### Problemlərin mövcudluğu Hindistanın, Rusiyanın və Çinin maraqlarına uyğundur

ABŞ-la Avropa ölkələri arasında yaranan gərginlik daha çox Hindistan, Çin və Rusiyanın maraqlarına cavab verir. Çünki hər üç dövlətin istər Avropa, istərsə də ABŞ-la münasibətləri arzuedilən səviyyədə deyil. Məhz Qrenlandiya və digər problemlərin yaranmasından sonra Avropa ölkələri. Xüsusilə də Avropa İttifaqı Çin və Hindistanla iqtisadi-ticarət əlaqələri qurmağa maraq göstərirlər. Bununla Avropa ABŞ- zərbə vurmağa və Trampı yanlış siyasətindən çəkindirməyə çalışırlar. Bu günlər Hindistan və Avropa Birliyi 18 ildən çox davam edən ticarət danışıqlarının başa çatdığını və azad ticarət sazişinin (FTA) parametrləri barədə razılaşmanın əldə edildiyini rəsmi olaraq elan edilib. Hindistanın Baş naziri Narendra Modi ilə zirvə görüşü üçün Yeni Dehliyə gələn Avropa Komissiyasının prezidenti Ursula fon der Leyen tədbiri "bütün sövdələşmələrin anası" adlandıraraq diqqəti cəlb edib. Lakin bir məsələ var: nə Modi, nə də Ursula fon der Leyen "sazişin" özünü rəsmi olaraq imzalamayıblar. Bu da ona dəlalət edir ki, Avropa İttifaqı hələ də ABŞ-la münasibətləri tam şəkildə kəsmək fikrində deyil. Hesab edirlər ki, D. Tramp Avropa maraqlarını zidd olan siyasətində ələ çəkərsə, yenidən Hindistanla münasibətləri arxa plana çevirərlər. Ona görə də, Dehlidə Avropa Ticarət Komissarı Maroş Şefçoviç və Hindistan Ticarət Naziri Piyuş Qoyal tərəfindən ticarət danışıqlarının başa çatması ilə bağlı yalnız siyasi bəyannamə imzalandı. Ekspertlər hesab edirlər ki, FTA-nın özünün rəsmi olaraq rəsmiləşdirilməsi və qüvvəyə minməsi üçün ən azı bir il keçəcək.

Qeyd etmək lazımdır ki, Hindistan və Aİ arasında ticarət sazişi üzrə danışıqlar 2007-ci ildə başlamış və 2013-cü ilə qədər, yəni çıxılmaz vəziyyətə düşənə qədər müxtəlif uğurlarla davam etmişdir. Danışıqlar 2022-ci ildə bərpa olundu və 2025-ci ildə ABŞ Prezidenti Donald Trampın aqressiv proteksionizm siyasətinə başlaması və aparıcı ticarət tərəfdaşlarına daha yüksək tariflər tətbiq etməsi ilə Yeni Dehli ilə Brüssel arasında ticarət və iqtisadi əlaqələr kəskin şəkildə gücləndi. Ümumilikdə, hər iki paytaxtda iyirmidən çox məsləhətləşmə raundu keçirildi və bu müddət ərzində Hindistan öz maraqlarını aqressiv şəkildə müdafiə etdi: hindlilər öz bazarlarını müdafiə etdilər və bir sıra mallarının rüsumsuz ixracını təşviq etdilər, eyni zamanda vətəndaşlarının Avropaya əmək miqrasiyası ilə bağlı mövcud viza çətinliklərini həll etməyə çalışdılar.

Uzunmüddətli iqtisadi və enerji böhranı, gözlənilməz Tramp, Rusiya ilə hərbi qarşıdurma və Çinlə iqtisadi qarşıdurma ilə qarşılaşan Brüssel yeni bazarlara ixracını artırmağa çox ehtiyac duydu. 1,4 milyard əhalisi olan və 2030-cu ilə qədər dünyanın üçüncü ən böyük iqtisadiyyatına çevrilməyi hədəfləyən Hindistan bu baxımdan əvəzolunmaz olduğunu sübut etdi. ABnin digər Asiya ölkələri - Cənubi Koreya və Yaponiya ilə bağladığı əvvəlki sərbəst ticarət müqavilələri oxşar miqyasda deyildi.Ticarət danışıqlarının yekununa görə, Hindistan və AB arasında ikitərəfli ticarət həcmi 136 milyard dollar təşkil edib. 15 milyard dollarlıq kiçik bir kəsir Avropanın payına düşüb. Avropanın Hindistana əsas ixracatı avtomobillər, təyyarələr, kosmik gəmilər və onların hissələri, eləcə də elektrik avadanlıqlarıdır. AB Hindistandan neft-kimya məhsulları, əczaçılıq məhsulları, tekstil, qiymətli daşlar və dəri məmulatları idxal edib.

### Hindistan "tarixində ən böyük sərbəst ticarət müqaviləsi bağlayıb"

Baş nazir Narendra Modi Yeni Dehlidə Avropa İttifaqı rəhbərliyi ilə keçirilən sammitdən sonra jurnalistlərə bildirib ki, Hindistan "tarixində ən böyük sərbəst ticarət müqaviləsi bağlayıb. Bu, sadəcə ticarət müqaviləsi deyil. Bu, ortaq rifah üçün yeni bir plandır". Narendra Modinin sözlərinə görə, müqavilə qlobal ÜDM-in 25 faizinə və qlobal ticarətin üçdə birinə təsir edəcək. Avropa İttifaqının yaydığı mətbuat açıqlamasına görə, Hindistan Cənubi Asiya respublikasına idxal edilən Avropa avtomobillərinə vergiləri əhəmiyyətli dərəcədə azaltmağa razılaşıb. Burada bir problem var. İstisna bütün avtomobillər üçün deyil, yalnız bir il ərzində idxal edilən ilk 250.000 avtomobil üçün keçərlidir - bunlar üçün gömrük rüsumu həqiqətən 110 faizdən 10 faizə endiriləcək. Lakin Avropa elektrik avtomobilləri endirimli dərəcəyə uyğun olmayacaq. Hindistan öz avtomobil sənayesini inkişaf etdirir və bununla da avtomobil istehsalçıları Tata və Mahindranın maraqlarını qoruyur. Öz növbəsində, Avropa Birliyi 7 il ərzində Hindistan tekstil məhsullarına, zərgərlik məmulatlarına, dəri məmulatlarına, Hindistan istehsalı olan ayaqqabılara və bir sıra digər mallara tariflərin aradan qaldırılmasına və ya əhəmiyyətli dərəcədə azaldılmasına razılıq verdi. Dehli də bu məsələni həll etməyə müvəffəq oldu.

***İLHAM ƏLİYEV***

TƏHLİL



**Elçin Bayramlı**

# "Mehriban" müharibə

***Son dövlərdə cəmiyyətdə dəhşətli ailə faciələri və məişət zəminində törədilən cinayətlər artmaqdadır. Bu hadisələrin bəziləri ən adi səbəbdən, bəziləri isə çox ciddi səbəblərdən baş verir. Bəs bu cür cinayət hallarının artmasına səbəb nədir?***

İnsanlar arasında psixoloji gərginliyin, stressin və əsəbiliyin yüksəlməsi bu tendensiyanın həm məişət zəminində baş verən hadisələrdə, həm də ictimai yerlərdəki münasibətlərdə özünü göstərir. Belə vəziyyətin formalaşmasında bir sıra amillər rol oynayır və bu, təkcə yerli deyil, qlobal miqyasda müşahidə olunan yeni dövrün reallığıdır. Mövcud durumun əsas səbəblərindən biri mənəvi deqradasiyadır. Mənəvi dəyərlərin arxa plana keçməsi, stressin, psixoloji problemlərin və psixi xəstəliklərin artması cəmiyyətdə münasibətlərin gərginləşməsinə ciddi təsir edir. Uşaq tərbiyəsindən başlayaraq bir çox sahədə müşahidə olunan geriləmə də bu prosesin tərkib hissəsidir.

Eyni zamanda insanlar arasında münasibətlərin getdikcə mənəvi prinsiplər üzərində deyil, maddi maraqlar üzərində qurulması ailədaxili, dostluq və sosial əlaqələrdə müəyyən problemlər yaradır. Bu hallar bəzən əmlak münaqişələri, qarşılıqlı anlaşılmazlıq və şəxsi maraqların üstün tutulması səbəbindən ağır faciələrlə nəticələnir.

Ailə münaqişələrinin əsas hissəsi mənəvi-əxlaqi səbəblərlə bağlıdır. Əxlaqsızlıq hallarının artması, ailə dəyərlərinin zəifləməsi və bu zəmində baş verən namus cinayətləri ümumi vəziyyəti daha da ağırlaşdırır. Nəticə etibarilə, bu proseslər həm kriminal vəziyyətin pisləşməsinə, həm də sosial münasibətlərin daha da gərginləşməsinə gətirib çıxarır. Ailə daxilində, dostlar arasında, iş mühitində və hətta gündəlik məişət münasibətlərində adi anlaşılmazlıqların belə ağır nəticələr doğurduğu hallara tez-tez rast gəlinir.

Bu baxımdan cəmiyyətin sağlamlaşdırılması məqsədilə sistemli və məqsədyönlü iş aparılmalıdır. Mənəvi dəyərlər uşaqlıqdan təbliğ olunmalı, milli-mədəni irsimiz qorunmalı və təbliğ edilməlidir. İnsanlara həyatın yalnız maddi ölçülərlə qiymətləndirilməməsi, insani və ailə münasibətlərinin milli dəyərlər üzərində qurulmasının vacibliyi aşılanmalıdır.

Son illər "müasirlik" və "azadlıq" adı altında ailə modeli və uşaq tərbiyəsində aparılan köklü dəyişikliklər mənfi nəticələrə səbəb olub. Cəmiyyətdə sosial münasibətlər elə qurulmalıdır ki, insanlar daimi stress və hüquq pozuntuları ilə üzləşməsin. İş və sosial mühitdə gərginliyin azaldılması, əxlaqsızlığın və mənəviyyatsızlığın yayılmasının qarşısının alınması sağlam münasibətlərin formalaşmasına şərait yaradar. Bütün bu amillər birgə şəkildə cəmiyyətin mənəvi və psixoloji baxımdan sağlam olmasını təmin edən əsas faktorlardır. Əgər bu sahələrdə deqradasiya davam edərsə, onun təsirləri sosial həyatda, kriminal vəziyyətdə və psixi problemlərin artmasında daha qabarıq şəkildə özünü göstərəcək. Buna görə də həm milli-mənəvi, həm də sosial müstəvidə sağlam cəmiyyətin formalaşdırılması üçün ardıcıl, məqsədyönlü dövlət siyasəti siyasət həyata keçirilməlidir. Cəmiyyətin bütün institutları və media da bu işə dəstək verməlidir.

Sağlam gələcək bu gündən başlayır. Bu gün cəmiyyətimizi sağlam qurmalıyıq ki, gələcəyimiz əmin olsun. Sağlam cəmiyyət isə sağlam ailədən, tərbiyəli uşaqlardan başlayır. Azərbaycan milli-mənəvi dəyərlər sistemi tarix boyu möhkəm bir baza üzərində möhtəşəm bir mədəniyyət formalaşdırıb. Onu qorumalı və gələcəyə ötürməliyik. Bu bizim ən ümdə vəzifəmizdir. Qloballaşma erasında milli mədəniyyətlərin, mənvi dəyərlərə təzyiqlər artıb, sözün əsl mənasında müharibə gedir. Bu müharibədə milli kimliyimizi itirməyə və uduzmağa haqqımız yoxdur, tam əksinə, bu döyüşdə qalib gəlməyə məhkumuq.

# Dünyaşöhrətli Azərbaycan şairi

## Dövlət başçısının Sərəncamıma əsasən, Azərbaycan ədəbiyyatının qüdrətli nümayəndəsi Xaqani Şirvaninin 900 illik yubileyi qeyd olunacaq

***Böyük Azərbaycan şairi Xaqani Şirvaninin 900 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan ədəbiyyatının qüdrətli nümayəndəsi Xaqani Şirvaninin 900 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə böyük Azərbaycan şairi Xaqani Şirvaninin 900 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirəcəkdir.***

Bildiyimiz kimi, 2026-cı ildə böyük Azərbaycan şairi Əfzələddin Xaqani Şirvaninin 900 illiyi tamam olur. Xaqani Şirvani Azərbaycan ədəbiyyatı və mədəniyyətinin qızıl dövrünün ümumbəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi nəhəng simalardandır. Sənəddə qeyd olunduğu kimi, zəmanəsinin ən müxtəlif elmlərini dərindən bilən və Şərqin çoxəsrlik mədəni ənənələri zəminində əzəmətlə yüksələn qüdrətli söz ustası şeiriyyətin zirvəsində dayanan sənət nümunələrindən ibarət zəngin bir irs qoyub getmişdir. Ədalətə çağırış, mübarizə ruhu və şəxsiyyət azadlığı, mənəvi ucalıq, insan ləyaqəti və idrakın gücünə inam bu nadir irsin səciyyəvi cəhətləridir. Mütəfəkkir sənətkar ictimai-fəlsəfi və didaktik-əxlaqi düşüncələrdən yoğrulan, yüksək estetik dəyərə malik humanist məzmunlu əsərlərində sosial-tarixi hadisələri özünəməxsus bədiiliklə mənalandırmış və bunlardan ibrət almağı tövsiyə etmişdir. Xaqani yaradıcılığında parlaq lirik lövhələrlə ifadəsini tapan vətənpərvərlik motivləri şairin doğma yurda və onun gözəlliklərinə sonsuz sevgisinin dolğun poetik təzahürüdür. Əsrinin mədəni həyatı ilə heyrətamiz dərəcədə sıx bağlı olan Xaqani Şirvani klassik ədəbiyyata qazandırdığı yeniliklərlə bütövlükdə Yaxın və Orta Şərq xalqlarının ədəbi-fəlsəfi fikrinin inkişafına qüvvətli təsir göstərmişdir. Sonrakı yüzilliklərin ustad şairləri Xaqani dühasına həmişə ehtiramla yanaşmış, məktəb kimi ondan bəhrələnmişlər.

Mənbələrdən məlumdur ki, şairin adı İbrahim, atasının adı Əli idi. Xaqani Şirvanda dülgər ailəsində anadan olmuşdur. İlk təhsilini əmisindən almış və dövrünün müxtəlif elmlərinə dərin maraq göstərmişdir. Gənc yaşlarından yüksək şairlik istedadını göstərən Xaqani Şirvanşahlar sarayına dəvət edilir və orada böyük şöhrət tapır. Saray çəkişmələri nəticəsində şair həbs edilir. Həbsdə olduğu dövrdə o "Həbsiyyə" şeirlərini yazır. Daha sonralar Xaqani Yaxın Şərq ölkələrində səfərdə olmuş və təəssüratlarını poetik əsərlərdə vermişdir. Şair ömrünün son illərini Təbrizdə keçirmişdir. Xaqani 1199-cu ildə vəfat etmiş və Təbrizin Şairlər qəbiristanlığında dəfn edilmişdir.

Əfzələddin Xaqani Azərbaycanda Nizami Gəncəviyə qədər olan ədəbiyyatın ən parlaq, ən qüdrətli nümayəndəsidir. O, ədəbiyyata yüksək sənətkarlıq, güclü siyasi-ictimai, humanist məzmun gətirmişdir.

Xaqani gənc yaşlarından başlayaraq gözəl şeirlər yazmışdır. "Uşaqlıqdan adətim bu olmuşdur ki, inciyim, inciməyim". O, həmişə inamın, həqiqətin, gözəlliyin carcısı olmuş, hər cür şəri rədd etmişdir.

25 yaşında ikən Şirvanşahların "məlik üş-şüara"sı Əbül-üla Gəncəvinin dəvəti ilə saraya gəlmiş, onun qızı ilə evlənmiş, Əbül ülanın ona verdiyi "Xaqani" təxəllüsü ilə şeirlər



yazmışdır. Sarayda xidmət etdiyi ərəfədə poeziyasındakı ciddi, sərt fikirlər, eyni zamanda hərəkəti, davranışı çoxlarını təşvişə salmışdır. Özünü "qanadı qırılmış quş kimi dəmir qəfəsdə" hiss edən şair Məkkə səfərinə çıxmalı olmuşdur. Məkkəni, Mədinəni, Bağdadı, digər şəhərləri gəzmiş, əsərlərində bu yad diyarda ona olan diqqətdən, hörmətdən, ehtiramdan həvəslə, ətraflı söhbət açmışdır. Səyahətinin nəticəsi olaraq "Mədain xərabələri" adlı məşhur fəlsəfi qəsidəsini yazmışdır. Bu əsərində şair Sasani şahlarının xaraba qalmış sa raylarının timsalında müasirlərini ibrət dərsi almağa çağırmışdır.

Xaqani Şirvanı klassik Şərq poeziyasının bütün janrlarında yüksək sənətkarlıq nümunələri yaratmışdır. Əsərləri tezliklə Yaxın və Orta Şərq ölkələrinə yayılaraq müasirlərinin nəzərini cəlb etmişdir. O, Yaxın Şərq ədəbiyyatı tarixində epik poeziyanın ilk görkəmli nümunəsi sayılan "Töhvət ül-İraqeyn" adlı məsnəvisini yazmışdır. 1157-ci ildə yazılmış bu əsərdə şair səfər macəraları ilə yanaşı, xalqların həyatından aldığı təəssüratı təsvir etmişdir. "Düşmənləri tənqid", "Günəşə xitab", "Qızıla məzəmmət" başlıqlı hissələr oxucunu heyran edir. Şair saflığın, işığın, hərarətin, ucalığın rəmzi olan günəşi özünün dostu sayır, ondan yardım diləyir. "Töhvət-ül-İraqeyn" əsəri Azərbaycan ədəbiyyatı ta rixində ilk poemadır. Əsərin əsas qəhrəmanı şairin özüdür. Poemada düşünən də, sevinən də, fəxr edən də, qəzəblənən də şairin özüdür.

Xaqani Şirvani bədxah saray şairlərinin hücumu nəticəsində 1170-ci ildə həbs olunaraq Şabran qalasına salınmış, 7 ay həbsdə qalandan sonra azad edilmişdir. Bütün bu əzab-əziyyətlərə dözməyən şair 1173-cü ildə ailəsi ilə birlikdə Şirvanı tərk etmiş, Təbrizə köçərək ömrünün axırına qədər orada yaşamışdır.

Xaqani Azərbaycan ədəbiyyatında ən böyük lirik şairlərdən biri kimi tanınıb. Onun qəzəl və rübailərində Azərbaycan poeziya məktəbinin ən yaxşı ənənələrinin əsası qoyulub. Xaqani yaradıcılığında Azərbaycan poetik məktəbinin öz əksini tapan xüsusiyyətlərindən biri də türklüyə dərin məhəbbətdir. Sonralar Nizami yaradıcılığında bu xüsusiyyət özünün zirvəsinə çatıb.

Mənbələrdə qeyd olunduğu kimi, Xaqani Şirvani olduqca mürəkkəb yaradıcılığa və özünəməxsus bədii ifadə tərzinə malik bir şair olub. Azərbaycan klassikləri arasında ancaq o, əruz vəzninin, demək olar ki, bütün bəhrləri üzrə şeir yazıb. Xaqani qüdrətli bir şair olduğundan, öz dövründə və sonrakı əsrlərdə geniş şöhrət qazanıb. Azərbaycanın və Yaxın Şərqin bir çox adlı-sanlı şairləri onu özünə ustad hesab edib və onun ayrı-ayrı əsərlərinə iftixarla nəzirələr yazıblar.

Xaqani Şirvani yalnız Azərbaycanın yox, bütün yaxın Şərq ədəbi-ictimai fikrinin XII əsrdə yetirdiyi ən görkəmli simalardan biri, sənətinin bəzi əzəmətli keyfiyyətləri ilə birincisidir. Tədqiqatçılar onu ədəbiyyatımızda fəlsəfi qəsidənin banisi, ilk və ən güclü məsnəvilərin, incə ruhlu qəzəllərin və müdrik rübailərin, nəhayət, kamil mənzum səyahətnamənin yaradıcısı kimi çox yüksək qiymətləndirirlər.

Xaqaninin zəngin ədəbi irsi 17 min beytlik lirik şeirlər divani, "Töhfətül-İraqeyn" poemasından, bədii nəsrin maraqlı nümunələri olan 60 məktubdan ibarətdir. Divanındakı şeirlər qəsidə, qəzəl, mədhiyyə, mərsiyə, rübai və s. ibarətdir. Onun ictimai-fəlsəfi məzmunlu əsərlərinə "Şiniyyə" və "Mədain xərabələri" qəsidələri, "Həbsiyyə" şeirləri və "Töhfətül-İraqeyn" poeması daxildir.

Xaqani həm də Azərbaycan ədəbiyyatında ən böyük lirik şairlərdən biri kimi tanınır. Onun qəzəl və rübailərində Azərbaycan poeziya məktəbinin ən yaxşı ənənələrinin əsası qoyulmuşdur. Xaqani yaradıcılığında Azərbaycan poetik məktəbinin öz əksini tapmış özəlliklərindən biri də türklüyə dərin məhəbbətdir. Sonralar Nizami yaradıcılığında bu xüsusiyyət özünün zirvəsinə çatmışdır.

Xaqani Şirvani klassik ədəbiyyata qazandırdığı yeniliklərlə bütövlükdə Yaxın və Orta Şərq xalqlarının ədəbi-fəlsəfi fikrinin inkişafına qüvvətli təsir göstərmişdir. Sonrakı yüzilliklərin ustad şairləri Xaqani dühasına həmişə ehtiramla yanaşmış, məktəb kimi ondan bəhrələnmişlər.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Umud Rəhimoğlunun 65 illik yubileyinə



***Həyatda elə insanlar var ki, onların keçdiyi yol zəhmət, dürüstlük və insanlara fayda vermək prinsipləri üzərində qurulur. Belə şəxsiyyətlərdən biri də bu il 65 illik yubileyini qeyd edən Umud Rəhimoğludur.***

65 il — zəngin həyat təcrübəsinin, formalaşmış dünyagörüşünün və dəyərli ömrün rəmzidir. Bu illər ərzində Umud Rəhimoğlu əzmkarlığı, məsuliyyəti və prinsipial mövqeyi ilə ətrafındakı insanların hörmətini qazanmış, nümunəvi insan kimi tanınmışdır. Onun fəaliyyəti və insani keyfiyyətləri bir çoxları üçün örnək olmuşdur. Umud Rəhimoğlu çalışdığı sahədə dərin biliklərə malik mütəxəssis kimi formalaşmış, öz təcrübəsi və təşəbbüskarlığı ilə mühüm nəticələrin əldə olunmasına töhfə vermişdir. O, fəaliyyəti dövründə qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlmiş, məsuliyyətli yanaşması və prinsipial mövqeyi ilə həmkarları arasında böyük hörmət qazanmışdır.

Onun peşəkar uğurlarının əsasını düzgün idarəetmə bacarığı, analitik düşüncə tərzi və yeniliklərə açıq olması təşkil edir. Umud Rəhimoğlu gənc kadrların formalaşmasına xüsusi diqqət yetirmiş, bilik və təcrübəsinin ötürülməsinə daim önəm vermişdir. Bu isə onun fəaliyyətinin uzunmüddətli və davamlı təsirə malik olmasını təmin etmişdir. Umud Rəhimoğlunu səciyyələndirən əsas xüsusiyyətlərdən biri də daim yeniliyə açıq olması, zamanın tələblərinə uyğun düşünməsi və əldə etdiyi təcrübəni bölüşməkdən çəkinməməsidir. Bu keyfiyyətlər onun həm şəxsi həyatında, həm də ictimai münasibətlərində uğur qazanmasına zəmin yaratmışdır.

Bu əlamətdar yubiley münasibətilə Umud Rəhimoğluna möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və gələcək fəaliyyətində yeni nailiyyətlər arzulayırıq. Arzu edirik ki, ömrünün bundan sonrakı illəri də uğurlar, xoş anlar və dəyərli xatirələrlə zəngin olsun.

65 illik yubileyiniz mübarək, Umud Rəhimoğlu!

SON SƏHİFƏ
SƏS
30 yanvar
2026-cı il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ
ABUNƏ OLMAQ İSTƏYƏNLƏR
AŞAĞIDAKI YAYIM
ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ
SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Şəxsi həyatın sərhədi harada bitir?



***Son illər televiziya məkanında ailədaxili münaqişələrin, həyat yoldaşları, valideynlərlə övladlar və yaxın qohumlar arasında yaşanan problemlərin açıq şəkildə efirdə müzakirəsi geniş yayılıb. Bir tərəfdən bu cür verilişlər "problemi görünən etmək" və "ictimai müzakirə yaratmaq" iddiası ilə təqdim olunur, digər tərəfdən isə şəxsi həyatın toxunulmazlığı, psixoloji zərər və media etikası ilə bağlı ciddi suallar doğurur.***

ARAŞDIRMA

## Ailə münaqişələri efirdə

Cəmiyyət üçün maarifləndirici olması iddia edilən bu formatlar həqiqətən çıxış yoludurmu, yoxsa ailə institutunu zəiflədən riskli tendensiyadır?

SİA mövzu ilə bağlı araşdırma edib.

Ailə münaqişələri niyə efirə daşınır?

Ailədaxili problemlərin efirdə müzakirəsinin əsas səbəblərindən biri reytinq faktorudur. Emosional gərginlik, qarşıdurma, ittiham və göz yaşı tamaşaçı marağını artırır. Media kommersiya baxımından bu cür mövzuları cəlbedici hesab edir. Eyni zamanda, bəzi hallarda efirə çıxan şəxslər bunu son çarə, "səsimi heç kim eşitmir" düşüncəsi ilə edirlər.

## Psixoloji və sosial risklər

Mütəxəssislərin fikrincə, ailə münaqişələrinin açıq efirdə müzakirəsi tərəflər arasında gərginliyi daha da dərinləşdirir, uşaqlar üçün travmatik nəticələr yaradır, ailə üzvlərinin sosial mühitdə damğalanmasına səbəb olur, problemi həll etmək əvəzinə onu şou elementinə çevirir. Xüsusilə zorakılıq, xəyanət, valideyn–övlad münasibətləri kimi mövzuların efirdə emosional şəkildə təqdim olunması etik baxımdan ciddi narahatlıq doğurur.

## Media etikası və məsuliyyət

Media yalnız məlumat ötürən deyil, həm də ictimai davranış modelləri yaradan gücdür. Ailədaxili söhbətlərin filtrsiz şəkildə efirə çıxarılması şəxsi həyatın toxunulmazlığı prinsipini pozur, münaqişəni normallaşdırır, cəmiyyətdə ailə institutuna olan inamı zəiflədə bilər. Maarifləndirmə ilə sensasiya arasında sərhəd çox incədir və bu sərhəd çox zaman qorunmur.

## Dünya təcrübəsi ilə müqayisə

**Qərb ölkələri**

ABŞ və Avropa ölkələrində ailə problemləri televiziya proqramlarında müzakirə olunsa da tərəflərin razılığı hüquqi sənədlərlə təsdiqlənir, psixoloq və mediatorlar əsas fiqur olur, şəxsi detalların açılması ciddi şəkildə məhdudlaşdırılır, uşaqların iştirakı demək olar ki, qadağandır. Məqsəd sensasiya deyil, problemin həlli və maarifləndirmədir.

## Postsovet məkanı

Azərbaycan daxil olmaqla bir çox postsovet ölkələrində isə bu formatlar daha çox emosional qarşıdurma üzərində qurulur, etik çərçivələr zəif qorunur, ailə daxili problemlər ictimai linç obyektinə çevrilir. Bu isə media azadlığı ilə media məsuliyyəti arasındakı balansın hələ tam formalaşmadığını göstərir.

Ailədaxili münaqişələrin efirdə müzakirəsi birmənalı şəkildə nə tam doğru, nə də tam yanlış hesab edilə bilər. Lakin bu proses etik normalara, psixoloji təhlükəsizlik prinsiplərinə, xüsusilə uşaqların hüquqlarına uyğun aparılmadıqda, cəmiyyət üçün faydadan çox zərər gətirir. Media ailə problemlərini şouya çevirmədən, peşəkar yanaşma və məsuliyyətlə təqdim etməyi bacarmalıdır. Əks halda efir ailəni qoruyan yox, onu dağıdan platformaya çevrilə bilər.

***Ayşən Vəli***

## ELAN

**Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu Abbaszadə Rüfət Bəhruz oğluna 26.10.2023-cü il tarixdə verilmiş DSX 0015661 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılsın.**

# Taksilərlə bağlı YENİ QƏRAR - 50 manat CƏRİMƏ və...

***Azərbaycanda taksilərin fəaliyyətinə buraxılış kartında müəyyən edilmiş ərazi hüdudları daxilində icazə veriləcək. Musavat.com xəbər verir ki, bir qrup sürücü bununla bağlı onlara bildirişlər göndərildiyini deyiblər.***




Onlar söyləyib ki, bildirişdə sürücülərə müvafiq qanunvericiliyin tələbləri xatırladılıb. Məhz bu qanunun tələblərindən irəli gələrək qeyd edilib ki, Sumqayıt və ya Bakı ərazisində sifarişləri yalnız bu şəhərdə qüvvədə olan buraxılış kartı ilə yerinə yetirmək mümkündür. Beləliklə, Sumqayıt üçün buraxılış kartı olmayan maşınlar üçün bu şəhərdə, Bakı üçün buraxılış kartı olmayan maşınlar üçün isə paytaxtda sifarişlər məhdudlaşdırılır.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) İqtisadiyyat.az-ın sorğusuna cavab olaraq bildirilib ki, "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanunun 20.2-ci maddəsinə əsasən, taksi minik avtomobilləri ilə sərnişin daşımaları buraxılış kartında müəyyən edilmiş ərazi hüdudları daxilində hər hansı şəxsin sifarişi əsasında qeyri-müntəzəm marşrut üzrə yerinə yetirilir.

Qeyd edilib ki, eyni zamanda, İnzibati Xətalar Məcəlləsinin 322.0.13. bəndinə əsasən, taksi minik avtomobili ilə sərnişin daşımalarının buraxılış kartında müəyyən edilən ərazi hüdudlarından kənarda həyata keçirilməsinə görə 50 manat cərimə nəzərdə tutulub. Sürücülər taksi fəaliyyəti göstərmək istədikləri şəhər üzrə müvafiq buraxılış kartını əldə etmək üçün AYNA-ya müraciət edə bilərlər.


*Baş redaktor:*
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
sesmediaqrup@gmail.com
sesqazeti@gmail.com
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur
Tiraj: 2000